**“AZƏRBAYCAN SƏNAYE SIĞORTA”**
**AÇIQ SƏHMDAR CƏMIYYƏTI**

**31 DEKABR 2024-CÜ IL TARIXINƏ**

-

**MALİYYƏ HESABATLARI**
**VƏ “ECONOMİC CHA” MMC-NIN**
**AUDİTOR RƏYİ**

# “Azərbaycan Sənaye Sığorta” ASC

***“ECONOMİC CHA” MMC-nin Direktoru***
***Cəfərova Sevda Teymur qızına***

**12 fevral 2025 – ci il**

Bu məktub maliyyə məlumatlarından ibarət maliyyə hesabatlarının “Azərbaycan Sənaye Sığorta” ASC -nin (bundan sonra “Cəmiyyət”adlandırılacaq) 31 dekabr 2024-cü il tarixinə olan maliyyə vəziyyəti və eləcə də, (Maliyyə vəziyyəti haqqında Hesabat, maliyyə fəaliyyətinin nəticələri haqqında Hesabat, xalis aktivlərdə (kapitalda) dəyişikliklər haqqında Hesabat, Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat) müvafiq olaraq, apardığı əməliyyatlar, bitmiş il üzrə pul vəsaitlərinin hərəkəti barədə həqiqi və ədalətli rəy təmin edilməsi məqsədilə “Azərbaycan Sənaye Sığorta” ASC -də apardığınız maliyyə hesabatlarının auditi ilə əlaqədar təqdim edilir.

Bununla, biz Maliyyə vəziyyəti haqqında Hesabatın, maliyyə fəaliyyətinin nəticələri haqqında Hesabatın, xalis aktivlərdə (kapitalda) dəyişikliklər haqqında Hesabatın, Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabatın müvafiq olaraq maliyyə hesabatlarının düzgün təqdim edilməsi üzrə məsuliyyətimizi təsdiq edirik.

Eyni zamanda, biz aşağıda verilən məlumatlara müəssisə ilə bağlı məlumatların daxil edildiyini təsdiq edirik.

Nəzərdə tutulan məlumatlara aşağıda göstərilənlər daxildir:

- •Rəhbərlik və ya Cəmiyyətin daxili nəzarətində əhəmiyyətli rola malik əməkdaşların aidiyyəti olduğu və ya maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə bilən qanunsuzluqlar baş verməmişdir.
- •Bütün mühasibat kitablarını və əlaqədar sənədləri və eləcə də, yığıncaqlarının bütün protokollarını sizə təqdim edirik (əsasən 01.01. 2025 -ci il tarixdən sonrakı dövr üzrə).
- •Biz əlaqəli tərəflərin açıqlanması ilə bağlı təqdim edilən məlumatın tamlığını təsdiq edirik.
- •Maliyyə hesabatlarında səhvlər və o cümlədən, əhəmiyyətli səhvlər yoxdur.
- •Cəmiyyət yerinə yetirməmə hallarında maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək müqavilənin bütün aspektlərini yerinə yetirmişdir. Tələblərin yerinə yetirilməməsi hallarında maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə biləcək tənzimləyici orqanların tələblərinin yerinə yetirilməməsi hallarına yol verilməmişdir.
- •Cəmiyyətin bütün aktivlərə hüququ vardır, şirkətin aktivləri üzərində həbs qoyma halları yoxdur.
- •Həm potensial, həm də faktiki olmaqla bütün öhdəliklər müvafiq qaydada qeydə alınmış və ya açıqlanmışdır.
- •Dövrün sonunadək maliyyə hesabatlarında düzəlişlərin aparılmasını tələb edən heç bir sonrakı hadisə baş verməmişdir.
- •Mülkü iddia üzrə heç bir iddia qəbul edilməmişdir və ya qəbul edilməsi ehtimal edilmir.
- •Nağd pul və ya investisiya hesablarımızdan heç birində rəsmi və ya qeyri-rəsmi təzminat üzrə sazişlər yoxdur.

• ARMB-nın yanında Maliyyə Monitorinqi Xidmətinin saytında yerləşdirilən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə əsasən barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ümumi Siyahısında göstərilən şəxslərlə və ölkələrlə şübhə doğuracaq heç bir əməliyyat aparılmamışdır.

**İdarə Heyətinin sədri:** **İlkin Mirzəyev**

AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN SƏNAYE SIĞORTA AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN SƏNAYE SIĞORTA OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN INDUSTRIAL INSURANCE AZERBAIJAN REPUBLIC

# *"Azərbaycan Sənaye Sığorta" ASC*

## *31 DEKABR 2024-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ*

## *HAQQINDA HESABAT*

*Rəhbərliyin məsulyyəti haqqında hesabat "Azərbaycan Sənaye Sığorta" ASC -nin (bundan sonra "Cəmiyyət" adlandırılacaqdır) ilkin maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarınına əsasən hazırlanması ilə bağlı rəhbərliyin məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.*

*Rəhbərlik 31 dekabr 2024-cü il tarixə Cəmiyyətin maliyyə vəziyyətini, əməliyyatlarını və həmin tarixə bitən il üzrə balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər barədə hesabatları düzgün əks etdirən və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tələblərinə uyğun ilkin maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.*

*Maliyyə hesabatlarını hazırlayarkən Cəmiyyətin rəhbərliyi aşagıdakılara cavabdehdir:*

- *Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsi və onun ardıcıl tətbiqinə;*
- *Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;*
- *İlkin maliyyə hesabatlarında açıqlanmış və izahı verilmiş hər hansı mühüm kənarlaşmaların BAS -nın tələblərinə uyğunluğuna;*
- *Cəmiyyətin ilkin maliyyə hesabatlarının hesablama metodu və fəaliyyəti fasiləsizlik prinsipi əsasında hazırlanmasına;*
- *Cəmiyyətin ilkin maliyyə hesabatlarının hazırlanması zamanı əsas keyfiyyət xüsusiyyətlərinin, o cümlədən şəffaflıq (aydınlıq), münasiblik, əhəmiyyətlilik, etibarlılıq, düzgün təqdimat, mahiyyətin formadan üstünlüyü, neytrallıq, ehtiyatlılıq, tamlıq, ardıcıllıq və anlaşıqlıq müqayisəlilik xüsusiyyətlərinin nəzərə alınmasına.*

*Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:*

- *Cəmiyyətdə effektiv və sağlam daxili nəzarət sisteminin tətbiqinə və məlumatların saxlanılmasına;*
- *Cəmiyyətin maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan və Cəmiyyətin ilkin maliyyə hesabatlarının BAS-nın tələblərinə uyğun olduguna təminat verən muhasibat yazılışlarının hər zaman dəqiq və düzgün saxlanılmasına;*
- *Mühasibat yazılışlarının Azarbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;*
- *Cəmiyyətin aktivlərinin təhlükəsizliyi üçün mümkün tədbirlərin görülməsinə;*
- *Saxtakarlıq hallarının, digər səhv və pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.*

*"Azərbaycan Sənaye Sığorta" ASC -nin 31 dekabr 2024-cü il il tarixə bitən il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq olunmusdur.*

*İdarə Heyətinin sədri:* *İlkin Mirzəyev*

*Baş mühasib:* *Eltun Bayramov*

AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN SƏNAYE SIĞORTA AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN SƏNAYE SIĞORTA OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN INDUSTRIAL INSURANCE AZERBAIJAN REPUBLIC

*________________ 2025 –ci il*

## *MƏKTUB – ÖHDƏLİK*

*12.02.2025 – ci il*

*"Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin Sədri Cənab İlkin Mirzəyev*

*Audit aparılmasının şərtləri*

*Sizin "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinin mühasibat (maliyyə) hesabatlarının auditinin aparılması haqqında təklifinizi qəbul edərək bu məktub-öhdəliklə təsdiq edirəm. Audit standartlarına və digər hüquqi-normativ aktlara əsasən 31 dekabr 2024-cü il tarixinə bitən il üzrə balans və gəlirlər-xərclər haqqında hesabatları ilkin sənədlər üzrə seçmə üsulu ilə yoxlanacaqdır (təqdim olunan sənədlərə əsasən).*

*Bizim tərəfimizdən audit Azərbaycan Respublikasının qanunvericilik aktlarına və Beynəlxalq Audit Standartlarına (mühasibat hesabatlarının tərtib edilməsi qaydasını və auditorun fəaliyyətini tənzimləyən qanunvericilik və normative aktlarına) əsasən aparılacaqdır.*

*Auditin məqsədi 2024-cü il üzrə "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinin mühasibat (maliyyə) hesabatlarının dürüstlüyü haqqında auditorun fikrini ifadə edən rəy verməkdən ibarətdir.*

*Biz öz nəticələrimizi əsaslandırmaq üçün sizin təşkilatın işçilərinin köməyinə ümid edərək, daxili nəzarətin vəziyyətinin, uçot məlumatlarının yetərliyinin və dürüstlüyünün yoxlanılmasının bir sıra prosedurlarından və testlərindən istifadə edəcəyik.*

*Auditin testlərinin seçilmə və digər özünəməxsus xüsusiyyətlərini, auditlə əhatə olunacaq sənədlərin, həmçinin böyük olmasını nəzərə alaraq, ayrı-ayrı qeyri-müəyyənlik və səhvlərin aşkar edilməməsi riski mövcuddur. Biz hər şeyi edəcəyik ki, həmin riski minimuma endirmək mümkün olsun, lakin nəticənin tam dəqiqliyinə (auditlə qəbul edilmiş ümumi qaydaya əsasən) zəmanət verə bilmərik. Siz mühasibat uçotu və hesabatlarının qəsdən təhrif edilməsi faktlarının aşkar edilməsi haqqında bizim yazılı hesabatımı məlumatlandıracaqsınız.*

*Biz auditin aparılmasına dair müqavilənin şərtlərinə və "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən göstərdiyim xidmətlərə görə məsuliyyət daşıyırıq. Biz Sizin təşkilatın kommersiya sirrinə riayət edilməsi üzrə öhdəliyi öz üzərimə götürürəm.*

*Uçot siyasətinin seçilməsinə və tətbiq edilməsinə, daxili nəzarət və mühasibat yazılarının uyğunluğunun təmin olunmasına, ilkin uçot məlumatlarının düzgün əks*

*etdirilməməsi də daxil edilməklə, mühasibat hesabatlarının tərtib edilməsinə görə "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinin icra orqanının məsuliyyətini Sizin nəzərinizə çatdırırıq. Biz Sizin, "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyindən xahiş edirik ki, audit üçün təqdim edilən məlumatların tam və dürüst olmasını rəsmi təsdiq edəsiniz.*

*Sizin işçilərlə hərtərəfli əməkdaşlığa ümidvaram ki, auditin tam aparılması üçün zəruri olan mühasibat sənədləri və digər məlumatlar bizim sərəncamımıza təqdim edəsiniz.*

*Ümid edirəm ki, Sizin mühasibat hesabatlarınızın dürüstlüyü haqqında bizim fikrimizi dəyişmək məqsədilə hər hansı bir formada bizə heç bir təyziq göstərilməyəcək. Qəbul edilmiş audit normalarına əsasən həmin şərtin pozulması auditin aparılmasına dair müqavilənin vaxtından əvvəl dayandırılması üçün əsasdır.*

*Göstərilən xidmətlərin dəyərini Sizinlə bağladığım müqavilədə göstəriləcək razılaşdırılmış məbləğ təşkil edəcəkdir.*

*Ayrı-ayrı işlərin dəyəri auditorların tələb olunan ixtisas səviyyəsinə və iş təcrübəsinə, məsuliyyət dərəcəsinə müvafiq olaraq dəyişə bilər. Hesablaşmanın həyata keçirilməsi qaydası və müddəti auditin aparılmasına dair müqavilə ilə müəyyən ediləcəkdir.*

*Xahiş edirik ki, Sizə təqdim olunan mühasibat hesabatlarının dürüstlüyünün auditinə razılıq haqqında məktub-öhdəliyin sürətini imza edib, onun məzmununa dair irad və təkliflərinizi bizə göndərəsiniz.*

***"ECONOMİC CHA" MMC-nin***
***Direktoru***

| | | |
|---|---|---|
| *(imza)* | ***Cəfərova Sevda*** *(soyadı,adı)* | 12.02.2025 *(tarix)* |

***Mühasibat hesabatlarının dürüstlüyünün auditor yoxlamasının şərtləri ilə razıyam:***

***Təsərrüfat subyektinin icra orqanının rəhbəri***

| | | |
|---|---|---|
| *(imza)* | ***Elkin Mirzəyev*** *(soyadı,adı)* | *(tarix)* |

## *31 DEKABR 2024-CÜ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT (MÜHASİBAT BALANSI )*

| | 2024 | 2023 |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| Torpaq, tikili və avadanlıqlar | 138 432,56 | 94 448,35 |
| Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin ka. | 1 061,95 | |
| Qeyri-maddi aktivlər | 145 162,81 | 153 856,09 |
| Təxirə salınmış vergi aktivləri | 239 487,21 | 239 487,21 |
| Uzunmüddətli maliyyə aktivləri | 19 060 976,82 | 6 749 590,74 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 312 619,83 | 312 619,83 |
| Sair aktivlər | 400 000,00 | 400 000,00 |
| **Cəmi** | **20 297 741,18** | **7 950 002,22** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar:** | | |
| **Debitor borcları:** | | |
| birbaşa sığorta üzrə | 1 015 693,36 | 885 796,85 |
| **Təkrarsığorta əməliyyatları üzrə:** | **36 907,24** | **266 779,51** |
| - təkrarsığortaçı üzrə | 36 907,24 | 266 779,51 |
| - təkrarsığortalı üzrə | | |
| **asılı təşkilatlar üzrə** | | |
| büdcə üzrə | | 0,00 |
| iddia tələbləri üzrə | 466 430,16 | 296 187,87 |
| işçi heyəti üzrə | 3 049,88 | 137,66 |
| sair debitorlar | 1 091 289,76 | 699 487,03 |
| **Cəmi** | **2 613 370,40** | **2 148 388,92** |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | | |
| hesablaşma hesabı | 273 816,37 | 180 548,38 |
| valyuta hesabı | 9 623,84 | 17 577,80 |
| depozit hesablar | 5 950 000,00 | 15 571 000,00 |
| sair pul vəsaitləri | | |
| **Cəmi** | **6 233 440,21** | **15 769 126,18** |
| **Qısamüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **1 494 367,32** | **1 277 037,40** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 1 494 367,32 | 1 277 037,40 |
| **Sair qısamüddətli aktivlər:** | **55 705,07** | **18 680,47** |
| gələcək hesabat dövrlərinin xərcləri | 7 420,23 | 8 007,27 |
| verilmiş avanslar | 48 194,84 | 10 673,20 |
| təhtəl hesablar | 90,00 | |
| **Sair aktivlər** | **2 705,60** | **2 705,60** |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **10 399 588,60** | **19 215 938,57** |
| **CƏMİ AKTİVLƏR** | **30 697 329,78** | **27 165 940,79** |

| KAPİTAL Və ÖHDƏLİKLƏR | 2024 | 2023 |
|---|---|---|
| **I. KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 11 000 000,00 | 11 000 000,00 |
| **Bölüşdürülməmiş mənfəət (zərər)** | **1 415 443,91** | **1 118 474,29** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1 297 016,39 | 3 586 098,67 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 118 427,52 | -2 467 624,38 |
| Elan edilmiş dividentlər | | |
| Cəmi | **12 415 443,91** | **12 118 474,29** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **15 765 029,63** | **12 590 389,43** |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 15 765 029,63 | 12 590 389,43 |
| **Qarşısıalınma tədbirləri fondu** | **523 676,27** | **453 099,67** |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **464 673,58** | **635 700,99** |
| təkrarsığortaçı üzrə | 464 673,58 | 635 700,99 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| Cəmi | **16 753 379,48** | **13 679 190,09** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Kreditor borcları:** | **1 177 680,25** | **1 303 959,37** |
| büdcə üzrə | 182 593,87 | 231 789,64 |
| əməyin ödənilməsi üzrə | 181 403,06 | 190 289,00 |
| sosial sığorta və təminat üzrə | 88 125,39 | 93 654,00 |
| asılı təşkilatlar üzrə | 229 125,43 | 175 893,80 |
| digər məcburi ödənişlər üzrə | 81 666,61 | 57 860,72 |
| sair kreditorlar | 414 765,89 | 554 472,21 |
| **Sair qısa müddətli öhdəliklər:** | | |
| Gələcək hesabat dövrünün gəlirləri | | |
| Alınmış avanslar | | |
| **Sair öhdəliklər** | **50 826,14** | **64 317,04** |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **300 000,00** | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **1 528 506,39** | **1 368 276,41** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **18 281 885,87** | **15 047 466,50** |
| **CƏMİ KAPİTAL Və ÖHDƏLİKLƏR** | **30 697 329,78** | **27 165 940,79** |

*İdarə Heyətinin sədri:* *İlkin Mirzəyev*

*Baş mühasib:* *Eltun Bayramov*

AZƏRBAYCAN RESPUBLİKASI · AZƏRBAYCAN SƏNAYE SIĞORTA AÇIQ SƏHMDAR CƏMİYYƏTİ · AZƏRBAYCAN SƏNAYE SIĞORTA · OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN INDUSTRIAL INSURANCE · AZERBAIJAN REPUBLIC

______________ *2025 – ci il*

## *31.12. 2024 -CÜ IL TARIXƏ MƏNFƏƏT VƏ (ZƏRƏRLƏR) HAQQINDA HESABAT*

| Gəlirlər | 2024 | 2023 |
|---|---|---|
| **Əsas əməliyyat gəliri:** | **26 307 511,59** | **43 586 631,31** |
| Birbaşa sığorta haqları üzrə | 24 944 487,56 | 20 226 702,41 |
| təkrarsığorta üzrə təkrar sığorta haqları | | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 1 219 114,53 | 23 207 811,98 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 143 909,50 | 152 116,92 |
| **Xalis sığorta ehtiyyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **-2 957 310,28** | **-691 131,76** |
| **İnvestisiya gəlirləri üzrə** | **1 885 098,47** | **1 183 879,50** |
| **Subroqasiya gəlirləri** | **605 602,74** | **271 880,92** |
| **Sair gəlirlər** | **1 008 942,34** | **1 475 309,74** |
| **CƏMİ GƏLİRLƏR** | **26 849 844,86** | **45 826 569,71** |
| **Xərclər** | | |
| **Əsas əməliyyat xərcləri:** | **16336182,53** | **36005193,33** |
| Sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 12 097 988,44 | 32 377 759,31 |
| Qaytarılan sığorta haqları üzrə | 281784,77 | 184048,03 |
| Tənzimləmə xərcləri | 33 595,43 | 231 445,11 |
| Təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 3 513 329,94 | 2 855 551,98 |
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 143 608,60 | 110 419,68 |
| Sığorta fəaliyyəti üzrə sair xərclər | 265 875,35 | 245 969,22 |
| **İşlərin aparılması xərcləri** | **8 892 391,84** | **5 955 659,14** |
| **Sair xərclər** | | **0,00** |
| **CƏMİ XƏRCLƏR** | **25228574,37** | **41960852,47** |
| **Maliyyə mənfəəti(zərəri)** | **1 621 270,49** | **3 865 717,24** |
| **Mənfəət vergisi (20%)** | **-324 254,10** | **-279 618,57** |
| **Hesabat dövründə xalis mənfəət(zərər)** | **1 297 016,39** | **3 586 098,67** |

*İdarə Heyətinin sədri:* *İlkin Mirzəyev*

*Baş mühasib:* *Eltun Bayramov*

*AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN SƏNAYE SIĞORTA AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN SƏNAYE SIĞORTA OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN INDUSTRIAL INSURANCE AZERBAIJAN REPUBLIC*

*________________ 2025 – ci il*

## 31.12.2024-CÜ IL TARIXINDƏ BITƏN IL ÜZRƏ PUL VƏSAITLƏRININ HƏRƏKƏTI HESABATI

| Əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti | 31.12.2024 | 31.12.2023 |
|---|---|---|
| Yığılmış ümumi sığorta haqqları | 24 783 863,41 | 20 443 801,62 |
| Ötürülmiş sığorta haqqları, təkrarsığortaçının payı | -3 246 351,89 | -2 369 386,66 |
| Ümumi sığorta ödənişləri | -12 097 988,44 | -32 487 661,64 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 210 009,97 | 23 000 264,93 |
| Alınmış mənfəət komissiyası | 119 945,20 | 162 822,33 |
| Subroqasiya gəlirləri | 365 217,08 | 124 742,75 |
| Ödənilmiş haqq və komissiyalar | -2 526 307,56 | -1 508 706,19 |
| İşçilər üzrə ödənilmiş xərclər | -3 075 965,94 | -1 774 966,14 |
| Ödənilmiş ümumi və inzibati xərclər | -1 214 859,02 | -1 618 783,45 |
| Alınmış digər gəlir | 905 792,32 | 5 914,12 |
| Qaytarılmış əsassız ödəmələr | -748 430,24 | -52 737,91 |
| Ödənilmiş digər məcburi ödəmələr | -1 877 260,36 | -1 128 586,01 |
| Xarici valyuta ilə əməliyyatlardan xalis realizasiya olunmuş (zərərlər) gəlirlər | -5 844,92 | -49 903,04 |
| Ödənilmiş mənfəət vergisi | -447 000,00 | 0,00 |
| **Əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin xalis hərəkəti:** | **1 144 819,61** | **2 746 814,71** |
| **Investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | *1 439 408,52* | *1 130 822,80* |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsindən pul vəsaitlərinin xaricolmaları | | |
| İştrak payı metodu ilə uçota alınmış investisiyalar | | *21 600,00* |
| Xarici valyuta ilə əməliyyatlardan xalis realizasiya olunmuş (zərərlər) gəlirlər | | |
| **Investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkətlər** | ***1 439 408,52*** | ***1 152 422,80*** |
| **Maliyyələşdimə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Borc şəklində alınmış məblələrdən yaranan pul vəsaitlərinin daxilolmaları | *800 000,00* | |
| Borc şəklində alınmış məblələrin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | *-500 000,00* | |
| Faiz şəklində pul vəsaitlərinin xaricolmaları | | |
| Səhmlərin satışından daxil olmalar | | |
| Ödənilmiş dividentlər | *-950 000,00* | |
| **Maliyyələşdimə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | ***-650 000,00*** | |
| | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | ***1 934 228,13*** | ***3 899 237,51*** |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | ***21 189 512,54*** | ***17 290 275,03*** |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği** | ***23 123 740,67*** | ***21 189 512,54*** |

*İdarə Heyətinin sədri:* ____________ *İlkin Mirzəyev*

*Baş mühasib:* ____________ *Eltun Bayramov*

AZƏRBAYCAN RESPUBLİKASI «AZƏRBAYCAN SƏNAYE SIĞORTA» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN SƏNAYE SIĞORTA OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN INDUSTRIAL INSURANCE AZERBAIJAN REPUBLIC

____________ *2025 – ci il*

## 31 DEKABR 2024-CÜ IL TARIXINDƏ BAŞA ÇATMIŞ IL ÜZRƏ

## SƏHMDAR KAPITALINDA DƏYIŞIKLIKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş Mənfəət (Zərər) | Cəmi |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **11 000 000.00** | **-2 467 624,37** | **8 532 375,63** |
| *Səhmdar kapitalın dəyişməsi:* | | | |
| *İl üzrə xalis mənfəət/zərəri* | | | |
| *Dividentlər* | | | |
| *Hesabat dövrünün nəticəsi* | | 3 586 098,67 | 3 586 098,67 |
| *Keçmiş illər üzrə bölüşdürü. mən.* | | -2 467 624,37 | -2 467 624,37 |
| *Xalis dəyişmə* | | | |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **11 000 000.00** | **1 118 474,30** | **12 118 474,30** |
| *Səhmdar kapitalın dəyişməsi:* | | | |
| *İl üzrə xalis mənfəət/zərəri* | | | |
| *Dividentlər* | | -1 000 000,00 | **-1 000 000,00** |
| *Hesabat dövrünün nəticəsi* | | 1 297 016,39 | 1 297 016,39 |
| *Keçmiş illər üzrə bölüşdürü. mən.* | | 118 474,30 | 118 474,30 |
| *Xalis dəyişmə* | | | |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **11 000 000.00** | **1 415 490,69** | **12 415 490,69** |

***İdarə Heyətinin sədri:*** ______ ***İlkin Mirzəyev***

***Baş mühasib:*** ______ ***Eltun Bayramov***

AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN SƏNAYE SIĞORTA AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN SƏNAYE SIĞORTA OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN INDUSTRIAL INSURANCE AZERBAIJAN REPUBLIC

______ ***2025 – ci il***

## 1: GIRIŞ

*"ECONOMİC CHA" MMC-nin direktoru Cəfərova Sevda Teymur qızı ((10 yanvar 2025 –ci il tarixli AT/206 saylı İCAZƏ ( lisenziyaya) əsasənl) (İcazə 03 may 2023-cü il tarixli SA/518 ) VÖEN 7300863331) ilə "Azərbaycan Sənaye Sığorta" ASC -nin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) 12 fevral 2025 – ci il tarixli CHA № 08 saylı bağlanmış müqaviləyə əsasən 01.01.2024-cü il tarixdən 31.12.2024-cü il tarixədək olan dövrün maliyyə təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatlarının (31.12.2024-cü il tarixinə Maliyyə vəziyyəti haqqında, Mənfəət və zərərlər, Pul vəsaitlərinin hərəkəti və aktivlərdə (kapitalda) dəyişikliklər haqqında hesabatların) auditini apardıq.*

*Auditə 12 fevral 2025 – ci il tarixdə başlandı və 27 fevral 2025 – ci il tarixdə başa çatdı.*

*Audit ilə əhatə olunan dövr ərzində maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:*

**İdarə Heyətinin sədri:** **İlkin Mirzəyev**

**Baş mühasib:** **Eltun Bayramov**

**Sifarişçi haqqında ümumi məlumat**

*Cəmiyyətin əsas fəaliyyətini sığorta, təkrar sığorta və sığorta qanunvericiliyində yol verilən digər fəaliyyətlər təşkil edir. Cəmiyyət əsas fəaliyyət növünü 02 aprel 2012-ci il tarixində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən verilmiş №000626 saylı qeydiyyata alınmış müddətsiz lisenziya əsasında həyata keçirir.*

*31.12.2024-cü tarixinə cəmiyyətin Nizamnamə kapitalı 11 000 000,00 (on bir milyon) olmaqla, təsisçilərin nizamnamə fondundakı payları aşağıdakı kimi olmuşdur:*
*"İnvestment Kompani" MMC -95%*
*"Azərbaycan Sənaye Bankı" ASC- 5%*

*Cəmiyyətin təşkilati-hüquqi forması açıq tipli səhmdar cəmiyyətdir.*

*"Azərbaycan Sənaye Sığorta" ASC, Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 17 dekabr 1996-cı il tarixində təsis edilmiş "Cİ Sığorta" MMC-nin təşkilatı-hüquqi formasının dəyişdirilməsi yolu ilə yaradılmışdır və onu hüquqi varisidir.*

*2008-ci ilin sonunda müvafiq çıxarışa əsasən Cəmiyyətin təşkilatı-hüquqi forması dəyişdirilərək Açıq Səhmdar Cəmiyyət olmuşdur*

*28 iyun 2012–ci il tarixində Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən, "İcbari Sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsinə əsasən*

*"Azərbaycan Sənaye Sığorta" ASC-yə aşağıdakı icbari sığorta növləri üzrə fəaliyyət göstərilməsinə icazə verilmişdir.*

- ✓ *Daşınmaz əmlakın icbari sığortası;*
- ✓ *Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası*
- ✓ *Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası*

***Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Zərifə Əliyeva küçə 3.***

***Cəmiyyətin bank rekvizitləri aşağıdakı kimidir:***
***Azərbaycan Sənaye Bankı ASC Park Bulvar Filialı Kod:503091***
***M/H: AZ12NABZ01350100000000016944***
***H/H №: AZ46CAPN00000000001611600306***

## 2. ƏMƏLİYYAT MÜHİTİ

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar maliyyə xidmətləri bazarının da genişlənməsi və inkişafına müsbət təsir göstərir. Müvafiq olaraq yerli qanunvericilik aktları da (vergi, gömrük, sığorta və s.) müxtəlif əlavə və dəyişikliklərə məruz qalır. 25 dekabr 2007-ci il tarixində "Sığorta fəaliyyəti haqqında" yeni qanun qəbul olunmuş və həmin qanunun qüvvəyə minməsi ilə əlaqədar sığorta sahəsində münasibətləri tənzimləyən bir sıra normativ sənədlər (qaydalar) Maliyyə Nazirliyi tərəfindən təsdiq olunmuşdur.

## 3. TƏQDİMATIN ƏSASI

Cəmiyyət mühasibat yazılışlarını Azərbaycanın sığorta və mühasibat uçotu qaydaları əsasında aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının sığorta və mühasibat qaydaları əsasında hazırlanmış və zəruri düzəlişlər edilmişdir.

Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

### ƏMƏLİYYAT VALYUTASI

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır ("AZN").

## 4. UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq müəssisənin maliyyə hesabatlarında tətbiq edilmişdir.

### UÇOT METODU

Maliyyə hesabatları ilkin dəyər konsepsiyası əsasında hazırlanmışdır.

### ƏSAS ƏMƏLİYYAT GƏLIRI

Əsas əməliyyat gəliri hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlandığı andan başlanır.

## DIGƏR GƏLIRLƏR

Digər gəlirlər aidiyyatı əməliyyatlar başa çatdıqda gəlirin kreditinə yazılır. Əməliyyat xərcləri və digər xərclər adətən mallar alındıqda və ya xidmətlər yerinə yetirildikdə hesablama metodu ilə qeyd olunur.

## PUL VƏSAITLƏRI VƏ EKVIVALENTLƏRI

Pul vəsaitləri – nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

Pul vəsaitlərinin ekvivalentləri – ödəmə müddəti üç ayadək olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin dəyişməsi kimi cüzi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitlərinin ekvivalentlərinə hesabat ilinin sonunda xalis pul vəsaitləri və onların ekvivalentlərinə əlavə edilən hər-hansı bank overdraftı da daxildir.

## BANKLARDA YERLƏŞDIRILMIŞ ƏMANƏTLƏR

Banklarda yerləşdirilmiş əmanətlər qarşı tərəfə pulun birbaşa verilməsindən yaranır. Banklarda yerləşdirilmiş əmanətlər pul vəsaitinin qarşı tərəfə ödəmə şəklində verildikdə qeydə alınır.

## ÖDƏNIŞ TARIXINƏDƏK SAXLANILAN INVESTISIYALAR

Ödəniş tarixinədək saxlanılan investisiyalar müəyyənləşdirilən və sabit ödənişli borc qiymətli kağızlarıdır. Bu cür qiymətli kağızlar ilk olaraq ədalətli dəyər üstəgəl birbaşa əməliyyat xərcləri məbləğində tanınır.

## ALINACAQ VƏSAITLƏR VƏ QABAQCADAN ÖDƏMƏLƏR

Alınacaq vəsaitlər sığortalanan şəxslərdən alınacaq birbaşa sığorta ödənişlərindən, təkrarsığortanı və riski başqa tərəfə verən şirkətdən alınacaq sığorta mükafatlarından və iddialar üzrə riskin digər tərəfə transferi nəticəsində debitor borclarından və digər vəsaitlərdən ibarətdir. Təkrarsığorta üzrə debitor və kreditorlar bunun üçün hüquqi əsas olduqda əvəzləşdirilir. Cəmiyyət xalis və ya birgə hesablaşma niyyətinə malik olur. Alınacaq vəsaitlər sığorta müqaviləsi bağlandığı tarixdə qeydə alınır və xidmətlər göstərildiyi zaman mənfəət və zərər hesabatına yazılır. Qabaqcadan ödəmələr ödəmə tarixində qeydə alınır və xidmətlər yerinə yetirildikdə mənfəət və zərər hesabatına daxil edilir.

## TORPAQ, TIKILI, AVADANLIQ VƏ AMORTIZASIYA

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli"). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azalan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələrini istifadə etməklə hesablanır:

| | |
|---|---|
| Tikililər | 7% |
| Maşın və avadanlıqlar | 25% |
| Nəqliyyat vasitələri | 25% |
| Digər aktivlər | 20% |

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinir.

**QEYRI-MADDI AKTIVLƏR VƏ AMORTIZASIYA**

Qeyri-maddi aktiv aşağıdakı meyarlara cavab verdikdə tanınır:

- Bu aktiv fiziki formaya malik olmayan qeyri-monetar aktiv olmalıdır;
- Ayrıca tanına bilinməlidir;
- Müəssisə aktiv üzərində nəzarət imkanına malik olmalıdır;
- Gələcəkdə iqtisadi səmərələr yaratmalıdır;
- Gələcəkdə iqtisadi səmərələrin müəssisəyə daxilolacağı ehtimalı olmalıdır;
- Aktivin dəyəri etibarlı qiymətləndirilməlidir.

Bu meyarlardan hər-hansı yerinə yetirilmədikdə xərclər qeyri-maddi aktiv kimi deyil, onların yarandığı dövrün xərcləri kimi tanınır. Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Cəmiyyət ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli"). Qeyd etmək lazımdır ki, faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlər amortizasiya oluna bilərlər, faydalı istifadə müddətləri qeyri-müəyyən olan qeyri-maddi aktivlər isə amortizasiya oluna bilməzlər. Cəmiyyət faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlərə amortizasiyanı "düz xətt metodu" ilə hesablayır. Bundan əlavə, balans dəyəri təyin edilmiş ədalətli dəyərlə müqayisə edilməli və ədalətli dəyər balans dəyərindən əhəmiyyətli dərəcədə aşağı olduqda, balans dəyərindən qiymətdən düşmə zərəri çıxılmalıdır. Aktiv qiymətdən düşmüş olduqda, ona amortizasiyanın standart qaydalarının tətbiq edilməsi davam etdirilməlidir.

Cəmiyyətin maliyyə hesabatında göstərilən qeyri-maddi aktivi təkrarsığorta fəaliyyəti ilə məşğul olmaq üçün alınmış lisenziyadan,"1C" proqram təminatına verilən lisenziyadan, "İnsure Az" proqram təminatına verilən lisenziyadan ibarətdir.Cəmiyyətin göstərilən istifadə müddəti məlum olmayan qeyri-maddi aktivləri ilin sonunda test edilmişdir və 2.1 min manat qiymətdən düşməyə məruz qalmışdır.İl ərzində maliyyə hesabatında göstərilən qeyri- maddi aktivlərə istifadə müddəti məlum olmadığı üçün amortizasiya hesablanmamışdır.

**VERGILƏR**

Vergilərin məbləği balans tarixinə qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanır.

*Mənfəət vergisi*

Mənfəət vergisi xərcləri cari vergilərdən və təxirə salınmış vergilər üzrə xərclərdən ibarətdir.

**Cari mənfəət vergisi** - balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə dövr üzrə gözlənilən vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə (müvəqqəti fərqlər) və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə (daimi fərqlər) vergi mənfəəti hesabatdakı mənfəətdən fərqlənir.

**Təxirə salınmış mənfəət vergisi** – cari və keçmiş dövrlərin maliyyə hesabatlarında tanınan əməliyyat və hadisələrin qiymətlədirilmiş gələcək vergi nəticələridir. Təxirə salınmış vergi elə mühasibat qeydidir ki, müvəqqəti fərqlər üzrə nəticələnə biləcək uçot mənfəəti və vergi mənfəəti arasında mövcud olan əlaqə ilə bağlı istənilən təhrifin aradan qaldırılmasını təsvir edir. Təxirə salınmış vergi öhdəlikləri – vergi tutulan müvəqqəti fərqlər ilə əlaqədar gələcəkdə ödənilməli olan mənfəət vergisinin məbləğidir. Vergi tutulan müvəqqəti fərqlərin mövcud olduğu yerlərdə vergi xərci nəzərdə tutulan gələcək vergi xərci vasitəsilə artırılır və öhdəlik kimi mühasibat balansında tanınır. Təxirə salınmış vergi aktivləri – çıxılan müvəqqəti fərqlərin nəticəsi kimi yaranan və gələcək dövrlərdə əvəzi alınmalı olan mənfəət vergisi məbləğləridir.

Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin qiymətləndirilməsi – aktivin realizasiya olunacağı və ya öhdəliyin yerinə yetiriləcəyi dövrə tətbiq edilməsi gözlənilən balans hesabatı tarixinə qüvvədə olan vergi

dərəcələri əsasında qiymətləndirilməlidir. Lakin balans hesabatı tarixinə hökumət gələcək illərdə vergi dərəcəsini dəyişəcək qanunvericilik aktlarını qəbul edərsə, bu zaman gələcəkdə qüvvədə olacaq dərəcə istifadə olunmalıdır.

Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa mənfəət və ya zərər hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər səhmdar kapitalında öz əksini tapır.

## İNVESTISIYALAR

Digər müəssisələrin qiymətli kağızlarına və aktivlərinə qısamüddətli və uzunmüddətli investisiyalar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə tanınır.

*Ödəniş tarixinədək saxlanılan investisiyalar*

Adətən aşağıdakı beş meyara uyğun olduğu zaman investisiyalar “ödəniş müddətinə qədər saxlanılan investisiyalar” kimi təsnifləşdirilir:

- qeyri-törəmə aktivlərdir;
- sabit və ya müəyyənləşdirilə bilən ödənişlərdir;
- sabit ödəmə müddətinə malik olmalıdırlar;
- müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üzrə kəskin niyyəti vardır;
- müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üçün maliyyə imkanına malikdir.

## QIYMƏTLƏNDIRILMIŞ ÖHDƏLIKLƏR

Gələcəkdə yaranacaq öhdəlik ehtimal edildikdə, bu ehtimal yarandığı andan bəri qeyd edilmiş öhdəlik qiymətləndirilmiş öhdəlik kimi tanınır.

## SIĞORTA ƏMƏLIYYATLARI

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Baza sığorta haqqı** – sığorta müqaviləsi üzrə hesablanmış sığorta haqqından həmin müqavilənin bağlanması üzrə göstərilən vasitəçilik xidməti üçün komisyon muzdu (hesablanmış sığorta haqqının 15%-dən çox olmamaqla) çıxıldıqdan sonra qalan məbləğdir.

**Qazanılmamış sığorta haqqı** – sığorta haqqının sığorta təminatının qüvvədə olma müddətinin hesablama tarixindən sonrakı dövrünə aid olan hissəsidir.

**Qazanılmış məcmu sığorta haqları** – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarının və hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatınınbaza hissəsinin cəmindən həmin dövrün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini çıxdıqdan sonra qalan məbləğdir.

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

**SIĞORTA EHTIYATLARI**

**Qazanılmamış sığorta haqları ehtiyatı** - Sığorta mükafatının qazanılmayan hissəsi üçün ehtiyat balans hesabatı tarixinə qüvvədə olan və müddəti bitməyən qaydaların şərtləri ilə əlaqəli dövrdə qəbul olunmuş və vaxtaşırı hesablanan sığorta mükafatlarının bir hissəsini ifadə edir.

**Zərərlər ehtiyatı** - yekun zərərlər üçün hesablamaları əks etdirir. Zərərlər ehtiyatına bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı (BTZE) və baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı (BVBZE) daxildir. İddialarla bağlı xərclərin tənzimlənməsi üzrə hesablamalar hər iki ehtiyata (BTZE) və (BVBZE) daxil edilir. BTZE sığortaçıya bildirilmiş, lakin heasabat tarixinə qədər tənzimlənməmiş hər bir tələb üzrə hesablanır. BVBZE verilmiş sığorta ödənişlərinə əsasən hesabat tarixinə üçbucaq metodu ilə hesablanmış BVBZE, hesabat tarixinə hesablanmış BTZE-nin 25%-i və hesabat tarixindən əvvəlki 4 rüb ərzində qazanılmış məcmu sığorta haqlarının 2.5%-nin böyük olanı əsasında hesablanır. Yekun düzəlişlər yarandıqları dövr üzrə mənfəət və zərər haqqında hesabatda əks olunur.

**TƏKRARSIĞORTA**

Təkrarsığorta sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı və ya təkrarsığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin sığorta qanunvericiliyində nəzərdə tutulmuş qaydada təkrarsığortaçı ilə bölüşdürülməsi və ya təkrarsığortaçıya ötürülməsidir. Cəmiyyət biznesin normal gedişində təkrarsığorta üzrə riskləri digər şirkətə verir. Lakin risk və təkrarsığortanın digər tərəfə verildiyi təkrarsığorta müqavilələri Cəmiyyəti sığortalanan şəxslər qarşısındakı öhdəliklərindən azad etmir. Aktivlərin təkrarsığortasına ödənilmiş iddialar üçün təkrarsığorta şirkətlərindən debitor borcları, o cümlədən, zərərləri tənzimləyən iddialar və Cəmiyyətə verilən sığorta mükafatları daxildir. Təkrarsığorta üzrə kreditor borclar təkrarsığortaçıya təkrarsığorta ödənişlərinin köçürülməsi üzrə Cəmiyyətin öhdəliyidir və Cəmiyyətin təkrarsığorta halları ilə bağlı iddialarındakı payıdır. Təkrarsığortalar tərəfindən ödəniləcək vəsaitlər təkrarsığorta siyasəti ilə bağlı iddia öhdəliyinə münasib şəkildə hesablanır. Sığorta riskini digər tərəfə verməyən təkrarsığorta müqavilələri birbaşa balansda əks edilir və digər alınacaq vəsaitləri və ya ödəniləcək vəsaitləri maddəsinə daxil edilir. Depozit aktivlər və ya öhdəliklər ödənilmiş və ya alınmış məbləğdən dəqiq müəyyənləşdirilmiş sığorta haqları və ya təkrarsığortalanan şəxs tərəfindən tutulmalı haqlar çıxılmaqla tanınır.

**XALIS ƏLDƏ ETMƏ GƏLIRLƏRI**

Cəmiyyət qəbul edilmiş yeni sığortalara görə komissiyalar ödəyir və təkrarsığortaçıya verilən riski köçürülmüş sığorta mükafatlarına görə komissiyalar alır. Bu növ, komissiya mənfəət və zərər haqqında hesabatda sığorta fəaliyyəti bölməsində qeydə alınır.

**SIĞORTA FƏALIYYƏTI ILƏ BAĞLI OLMAYAN XIDMƏTLƏR**

Sığorta ilə bağlı olmayan xidmətlər birbaşa balansda hesabat edilərək riskin köçürülmədiyi əməliyyatları əks etdirir. Aktiv və ya öhdəlik geri ödənilmiş məbləğlər və tutulmuş hər hansı komissiyalar çıxılmaqla alınmış məbləğlər ilə tanınır.

**XARICI VALYUTA ƏMƏLIYYATI**

Cəmiyyətin əməliyyat valyutası manatdır. Xarici valyutada olan monetar maddələr (kassa qalığı, hesab qalığı, debitor borclar, kreditor borclar, öhdəliklər və s.) Cəmiyyətin balans hesabatının bağlandığı tarixə (31 dekabr) olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcud olan valyuta məzənnəsi istifadə olmaqla çevrilir. Xarici valyutada olan ədalətli dəyər ilə qiymətləndirilən (və ya yenidən qiymətləndirilmiş) qeyri-monetar maddələr ədalətli dəyər müəyyən edilən (və ya yenidən qiymətləndirilmə aparılan) günə olan valyuta məzənnəsi istifadə olunmaqla çevrilir.

Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsilə mühasibat uçotuna daxil edilir. Qeyri-monetar maddələrlə bağlı digər mənfəət və ya zərərin mənfəət və zərər haqqında hesabat vasitəsilə tanındığı hallarda yaranan məzənnə fərqləri də həmçinin bu hesabatlara daxil edilir. Mənfəət və ya zərərlər kapital vasitəsilə tanındığı hallarda müvafiq olaraq, məzənnə fərqləri də həmçinin kapital vasitəsilə tanınır. Xarici valyuta balansında istifadə olunan əsas dərərəcə Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") rəsmi məzənnələri əsasında aşağıda göstərilib:

**ƏVƏZLƏŞDIRMƏ**

Maliyyə aktivləri və öhdəlikləri yalnız o zaman əvəzləşdirilir ki, qarşılıqlı əvəzləşdirmənin həyata keçirilməsi üçün qanuni hüquq mövcud olmalı, iki alətin qarşılıqlı əvəzləşdirilməsi niyyəti və hər iki müqavilənin eyni zamanda reallaşdırılması niyyəti olsun.

**İŞÇI HEYƏTI ILƏ BAĞLI XƏRCLƏR VƏ AIDIYYATI AYIRMALAR**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Cəmiyyət işçilərin əmək haqlarından məcburi sosial sığorta haqları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bundan əlavə bu tip təqaüd sistemi işəgötürən tərəfindən işçilərin əmək haqı fondunun müəyyən faizi kimi Dövlət Sosial Müdafiə Fonduna məcburi sosial sığorta haqları ayırmalarını nəzərdə tutur. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir. Cəmiyyət Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı fərdi qaydalara malik deyildir. Bundan başqa, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**SƏHMDAR KAPITALI**

Səhmdar kapitalı ilkin dəyər ilə tanınır. Səhmdarların pulu vəsait şəklində deyil, aktiv və ya başqa formada kapitala əlavələr etdikdə onların dəyəri əməliyyatın aparıldığı tarixə ədalətli dəyər ilə qeydə alınır.

***<u>Torpaq, tikili və avadanlıqlar</u>***

Şirkətin tanınma meyarlarına cavab verən Torpaq, tikili və avadanlıqları 7 №-li Milli Mühasibat Uçotu Standartının şərtlərinə əsasən hər hansı yığılmış amortizasiya və qiymətdən düşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınırlar. Torpaq, tikili və avadanlıqlar obyektinin tanınmasının dayandırılması nəticəsində yaranan qazanc və ya itki mənfəət və zərər haqqında hesabatda əks etdirilir. Torpaq, tikili və avadanlıqlar dövriyyədən kənar maddi aktivlər qrupuna aiddir (qeyri-monetar) və onların satışından əldə edilən gəlir mənfəət və zərər haqqında hesabatda əks etdirilir. Şirkətin balansında olan avadanlıqlar satış üçün nəzərdə tutulmuş kimi təsnifləndirilmə meyarlarına uyğun gəldiyi zaman mühasibat balansında ayrıca maddə ilə "satış üçün nəzərdə tutulmuş kimi" təsnifləşdirilir.Bu cür təsnifləşdirilən aktivlər iki dəyərdən ən aşağı dəyərlə: satış xərcləri çıxılmaqla ədalətli dəyər ilə və ya balans dəyəri ilə qiymətləndirilir və həmin aktivlər üzrə amortizasiyanın hesablanması dayandırılır.

Yenidənqiymətləndirmə aktivin ədalətli dəyərinin yenidən qiymətləndirilməsidir.Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aktivin satılması üçün əldə olunan və ya öhdəliyin ötürülməsi üçün ödənilən məbləğdir. Əgər aktivin balans dəyəri onun ədalətli dəyərindən azdırsa bu artım aktivin balans dəyərini artırmaqla yenidən qiyətləndirmə artımı kimi sair məcmu gəlir haqqında hesabat vasitəsi ilə Maliyyə vəziyyəti haqqında hesabatda (bundan sonra MVHH) "Yenidənqiymətləndirmə" adı altında qeyd edilir. Əgər aktivin balans dəyəri onun ədalətli dəyərindən azdırsa o zaman bu azalma yenidənqiymətləndirmə zərəri kimi Məcmu gəlir hesabatında qeyd olunur.Yenidənqiymətləndirmə uzunmüddətli aktivin dəyərində baş verən dəyişiklikdir ki, bu da reallaşmamış qazancdır.Uzun müddətli aktivin dəyərinin artması müəssisəyə əlavə pul vəsaiti

gətirmədiyi və reallaşmamış qazanc olduğuna görə bu qazanc mənfəətin bölüşdürülməsi kimi istifadə edilə bilməz.

Ancaq aktivin balans hesabından silinməsi və ya satışı zamanı bu qazanc artıq mənfəətə çevrilir, yəni reallaşır. Bu reallaşma bölüşdürülməmiş mənfəət hesabına köçürülür.

Amortizasiya istismara yararlı müddətdə aktivin dəyərinin onun faydalı istifadə müddəti ərzində sistematik olaraq bölüşdürülməsidir. Şirkətin uçot siyasətinə əsasən seçdiyi amortizasiya metodu hər hesabat ilinin sonunda nəzərdən keçirilməlidir. Müəssisə amortizasiya metodunu dəyişərsə bu dəyişiklik 11 nömrəli "Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər " adlı MMUS –nin şərtlərinə görə mühasibat hesablamalarında dəyişiklik kimi nəzərə alınmalıdır. Əgər amortizasiya metodu dəyişdirilərsə bu zaman bu dəyişiklik dəyişiklik cari ilə və növbəti illərə tətbiq edilməlidir.Uyğun görülən azalan qalıq metodu, düz xətt metodu və istehsal metodudur.

Şirkət mövcud olan torpaq, tikili və avadanlıqlarına azalan qalıq metodundan istifadə etməklə amortizasiya hesablayır.Şirkət hər hesabat ilində aktivlərin faydalı istifadə müddətini nəzərdən keçirir.Cəmiyyət il ərzində seçdiyi amortizasiya metodunu dəyişməmişdir.Aşağıda Cəmiyyətin maliyyə vəziyyəti haqqında hesabatda göstərdiyi amotizasiya olunan maddi aktivləri və onların amortizasiya normaları göstərilmişdir.

Kompüter və avadanlıqlar 25%

Nəqliyyat vasitələri 25%

Mebel və avadanlıqlar 20%

**Əmlak və avadanlıqlar**

| | *Nəqliyyat Vasitələri* | *Mebel və avadanlıqlar* | *Kompyuter və avadanlıqlar* | *Cəmi* |
|---|---|---|---|---|
| *Balans dəyəri* | | | | |
| *01.01.2024-cü il tarixə qalıq* | *26* | *133* | *121* | *280* |
| *Alışlar* | | *0* | *70* | *20* |
| *Silinmələr* | *-25* | *-24* | *-1* | *-5* |
| *31.12. 2024-cü il tarixə qalıq* | *1* | *109* | *190* | *300* |
| *Yığılmış köhnəlmə* | | | | |
| *01.01. 2024-cü tarixə qalıq* | *25* | *80* | *83* | *188* |
| *İl ərzində hesablanıb* | | *21* | | *12* |
| *Yığılmış köhnəlmə silinib* | *-24.5* | *-1* | *-20* | *-1* |
| *31.12. 2024-cü tarixə qalıq* | *0.5* | *100* | *63* | *163.5* |
| | | | | |
| *31.12. 2024-cü tarixə* | | | | |
| *Xalis balans dəyəri* | *0.5* | *9* | *127* | *136.5* |

***31.12. 2024-cü il tarixinə şirkətin əmlak və avadanlıqlarında dəyərsizləşmə müşahidə olunmamışdır.***

## 5. XƏRCLƏR

| Xərclər | *31.12.2024-cü il tarixə* | *31.12.2023-cü il tarixə* |
|---|---|---|
| **Əsas əməliyyat xərcləri:** | **16336182,53** | **36005193,33** |
| Sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 12 097 988,44 | 32 377 759,31 |
| Qaytarılan sığorta haqları üzrə | 281784,77 | 184048,03 |
| Tənzimləmə xərcləri | 33 595,43 | 231 445,11 |
| Təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 3 513 329,94 | 2 855 551,98 |
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 143 608,60 | 110 419,68 |
| Sığorta fəaliyyəti üzrə sair xərclər | 265 875,35 | 245 969,22 |

| | İşlərin aparılması xərcləri | Manatla |
|---|---|---|
| | **Əmək haqqı - cəmi** | **3644177,48** |
| | o cümlədən : | |
| | **a) ştat işçilərinə əmək haqqı - cəmi** | 3644177,48 |
| | o cümlədən : | |
| | - vəzifə maaşlarına üzrə | 1920458,87 |
| | - mükafat | 1624817,54 |
| | - sair ödənişlər (orta qazanc üzrə) | 98901,07 |
| | **b) siyahıdankənar tərkibli işçilərə əmək haqqı - cəmi** | |
| | **Sığorta vasitəçilərinə komisyon muzdlar - cəmi** | **2579391,99** |
| | o cümlədən : | |
| | sığorta agentlərinə | 2577403,08 |
| | sığorta brokerlərinə | 1988,91 |
| | **Təkrarsığortalılara hesablanmış komisyon muzdlar** | |
| | **Dövlət sosial müdafiə fonduna ayırmalar** | 552945,48 |
| | **Təsərrüfat xərcləri** | 8910,17 |
| | **Dəftərxana xərcləri** | 20017,33 |
| | **Ezamiyyə xərcləri - cəmi** | 51262,76 |
| | o cümlədən | |
| | ölkə daxilində | 9136,50 |
| | ölkə xaricində | 42126,26 |
| | **Bank xidməti xərcləri** | 55188,40 |
| | **Məsləhət xidmətləri** | |
| | **Reklam işinin aparılmasına xərclər** | 90374,43 |
| | **Amortizasiya ayırmaları** | 32392,68 |
| | **Əsas vəsaitlərin təmiri üzrə xərclər** | |
| | **İşçilərin ixtisasının artırılmasına çəkilmiş xərclər** | 24949,20 |
| | **Nümayəndəlik xərcləri** | 2533,65 |
| | **Sair xərclər - cəmi** | **1830248,27** |
| | o cümlədən | **1805465,86** |
| | Konsaltinq ,audit,məsləhət xidmətləri,üzvlük haqları,hüquqi xidmətlər | 9277,00 |
| | Məcburi ayırmalar (İSB 5% və MBNP 0,4%,İSB Yaşıl kart daxil) | 856925,06 |
| | Konsultasiya xidmətləri | 160024,68 |
| | Rabitə Xərcləri | 24153,13 |

*(Məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | | |
|---|---|---|
| | Elektron xidmətlər | 87853,61 |
| | Şirkətin sığorta xərcləri | 32636,29 |
| | İcbari Tibbi sığorta xərcləri-2% | 69892,56 |
| | İşsizlikdən sığorta-0,5% | 17871,30 |
| | Proqram təminatı xərci | 49770,00 |
| | İcarə xərci | 317193,61 |
| | Dövlət rüsumu | 2086,35 |
| | Poçt xidməti | 9199,22 |
| | Polioqrafiya xidməti | 106,20 |
| | Avtomobillər üzrə sair xərclər | 62785,02 |
| | Kommunal xərclər | 11994,91 |
| | İnternet xidməti | 12864,00 |
| | Marketinq xərcləri | |
| | Tender xərci | 5442,35 |
| | Gəlirdən çıxılmayan xərclər | 61144,30 |
| | Səhmlərin saxlanılması xərci | 13092,91 |
| | Vergi xərcləri | 1153,36 |
| | Digər xərclər | **24782,41** |
| | **Y E K U N :** | **8 892 391,84** |

2024-ci ildə İAX-də 2023-ci illə müqayisədə 49 % artma müşahidə olunmuşdur.

| Göstəricilər | 2024 | 2023 | Fərq (İllər üzrə) + / - | Fərq %-lə |
|---|---|---|---|---|
| Əmək haqqı xərcləri | 3644,18 | 2296,7 | 1347,48 | 59% |
| Sosial Müdafiə Fondu | 552,95 | 357,05 | 195,9 | 55% |
| Ezamiyyə xərcləri | 51,26 | 8,59 | 42,67 | 497% |
| Sığorta vasitəçilərinə komisyon muzdlar | 2579,39 | 1571,52 | 1007,87 | 64% |
| İstehsalatda bədbəxt hadisələr üzrə işçilərin icbari sığortası və personel tibbi sığorta xərci | 32,64 | 25,84 | 6,8 | 26% |
| İnformasiya xidməti | 172,88 | 153,49 | 19,39 | 13% |
| İcarə haqqı | 317,19 | 266,74 | 50,45 | 19% |
| Kommunal xərc | 11,99 | 11,64 | 0,35 | 3% |
| Rabitə və elektron xidmət Xərcləri | 112 | 83,37 | 28,63 | 34% |
| Dəftərxana xərcləri | 20,02 | 20,08 | -0,06 | 0% |
| Təsərrüfat xərcləri | 8,91 | 5,75 | 3,16 | 55% |
| Məcburi ayırmalar (İSB 5% və MBNP 0,4%) | 856,93 | 553,95 | 302,98 | 55% |
| Poçt xərci | 9,2 | 7,89 | 1,31 | 17% |
| Proqram təminatına çəkilən xərclər | 49,77 | 52,01 | -2,24 | -4% |
| İşçilərin ixtisasının artırılmasına çəkilmiş xərclər | 24,95 | 6,55 | 18,4 | 281% |
| Reklam xərcləri | 90,37 | 247,16 | -156,79 | -63% |
| Konsaltinq ,audit,məsləhət xidmətləri | 9,28 | 17,93 | -8,65 | -48% |
| Avtomobillər üzrə xərclər | 62,79 | 39,53 | 23,26 | 59% |
| Bank xidməti | 55,19 | 28,92 | 26,27 | 91% |
| Əsas vəsaitlərin amortizasiyası | 32,39 | 21,45 | 10,94 | 51% |
| Sair xərclər | 193,38 | 174,22 | 19,16 | 11% |
| Əsas vəsaitlərlə bağlı digər xərclər | 4,73 | 5,28 | -0,55 | -10% |
| **Cəmi** | **8892,39** | **5955,66** | **2936,73** | **49%** |

## 6. SAİR UZUNMÜDDƏTLİ AKTİVLƏR

| | 31.12.2024-cü il tarixə | 31.12.2023-cü il tarixə |
|---|---|---|
| İcbari Sığorta Bürosuna birdəfəlik ödənilmiş təminat depoziti | 400,000 | 400,000 |
| Cəmi | 400,000 | 400,000 |

Bu maddə üzrə olan aktivlərə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən İcbari Sığorta Bürosuna birdəfəlik olaraq ödənilmiş təminat depozit məbləğləri daxildir. O cümlədən,

- Daşınmaz əmlakın icbari sığortası üzrə – 100.000 (yüz min) manat;
- Daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 100.000 (yüz min) manat;
- Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat.

## 6. Qısamüddətli debitor borcları

| | 31.12.2024-cü il tarixə | 31.12.2023- cü il tarixə |
|---|---|---|
| Birbaşa sığorta üzrə | 1 015 693,36 | 885 796,85 |
| Təkrar sığorta üzrə | 36 907,24 | 266 779,51 |
| Artıq ödəmələr üzrə büdcədən | | |
| İddialar üzrə | 466 430,16 | 296 187,87 |
| Işçi heyəti ilə hesablaşmalar | 3 049,88 | 137,66 |
| Sair debitorlar | 1 091 289,76 | 699 487,03 |
| Cəmi | 2 613 370,40 | 2 148 388,92 |

Cəmiyyətin siyasətinə əsasən müştərilər sığorta haqlarını razılaşdırılmış ödəniş şərtlərinə uyğun olaraq ödəyirlər. Müştəri seqmentindən asılı olaraq ödəniş müddəti hesab-fakturanın təqdim edildiyi tarixdən etibarən 14-30 gün təşkil edir. Lakin bu ödəniş müddətləri müsbət kredit tarixçəsi olan müəyyən müştərilər üçün fərqli ola bilər. Bu baxımdan ödəmə müddəti keçmiş borclar üzrə ehtiyatların yaradılması məqsədə uyğun hesab edilməmişdir.

## 7. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏR

| | 31.12.2024-cü il tarixə | 31.12.2023 – cü il tarixə |
|---|---|---|
| Kassa vəsaitləri | | - |
| Banklardakı hesablaşma hesabları | | |
| Azərbaycan manatı hesabı | 273 816,37 | 180 548,38 |
| Valyuta hesabı | 9 623,84 | 17 577,80 |
| Bank depozitləri | 5 950 000,00 | 15 571 000,00 |
| sair pul vəsaitləri | | |
| Cəmi pul vəsaitləri və ekvivalentləri | 6 233 440,21 | 15 769 126,18 |

31.12. 2024-cü il tarixinə cəmiyyətin banklarda olan pul vəsaitlərinin balans dəyəri onun ədalətli dəyərinə bərabər olmuşdur.Pul vəsaitləri və onun ekvivalentlərində dəyərsizləşmə müşahidə olunmamışdır.

## 8. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR

| | 31.12. 2024-cü il tarixə | 1.12.2023-cü il tarixə |
|---|---|---|
| Təxirəsalınmış vergi öhdəlikləri | | - |
| Qarşısıalınma tədbirləri fondu | 523 676,27 | 453 099,67 |
| Qeyri-həyat sığortası sahəsi üzrə | 15 765 029,63 | 12 590 389,43 |
| Təkrarsığortaçı üzrə öhdəliklər | 464 673,58 | 635 700,99 |
| Sair öhdəliklər | | |
| Cəmi | 16 753 379,48 | 13 679 190,09 |

## 9. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

| | 31.12.2024-cü il tarixə | 31.12.2023- cü il tarixə |
|---|---|---|
| *Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər* | *300 000,00* | |
| *Qısamüddətli qiymətləndirilmiş öhdəliklər* | | |
| ***Kreditor borcları:*** | ***1 177 680,25*** | ***1 303 959,37*** |
| *büdcə üzrə* | *182 593,87* | *231 789,64* |
| *əməyin ödənilməsi üzrə* | *181 403,06* | *190 289,00* |
| *sosial sığorta və təminat üzrə* | *88 125,39* | *93 654,00* |
| *asılı təşkilatlar üzrə* | | |
| *digər məcburi ödənişlər üzrə* | *81 666,61* | *57 860,72* |
| *asılı təşkilatlar üzrə* | *229 125,43* | *175 893,80* |
| *sair kreditorlar* | *414 765,89* | *554 472,21* |
| ***Sair qısamüddətli öhdəliklər:*** | | |
| ***gələcək hesabat dövrünün gəlirləri*** | | |
| ***alınmış avanslar*** | | |
| ***Sair öhdəliklər*** | ***50 826,14*** | ***64 317,04*** |
| **Cəmi** | **1 528 506,39** | **1 368 276,41** |

## 10. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflərlə münasibətlər, bir tərəfin digərinin iqtisadi və əməliyyat qərarlarına nəzarət etmək və ya onlara əhəmiyyətli təsir göstərmək hüququna malik olduğu münasibətlərdir. Hər bir əlaqəli tərəflə münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin iqtisadi məzmununa yönəldilir. Cəmiyyətə münasibətdə müəssisənin biznes fəaliyyətinə dair qərarlarına əhəmiyyətli təsir göstərə biləcək tərəflər (müəssisə və ya fərdi şəxs), əsas idarə heyəti və fiziki şəxs olan əlaqəli tərəfin yaxın ailə üzvləri əlaqəli tərəf ola bilər.

## 11. MALİYYƏ ALƏTLƏRİ VƏ ONLARIN ƏDALƏTLİ DƏYƏRİ

Maliyyə alətləri bir müəssisənin maliyyə aktivlərinin və digər müəssisənin maliyyə öhdəlyinin yaranmasına səbəb olan hər hansı sənəd və ya müqavilədir. Bu ikili aspekt hər zaman mövcud olmalıdır. Əgər bu aspektlərdən hər hansı biri mövcud deyilsə, onda müqavilə maliyyə aləti deyildir.

Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və sərbəst katirovkası olan bazar qiymətləri ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün

bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

**MALİYYƏ AKTİVLƏRİ**

Pul vəsaiti, digər müəssisədə kapital kapital aləti (yəni, bir qayda olaraq səhmlər), digər müəssisədən pul vəsaiti almaq üzrə müqavilə hüququ, müəssisənin əlverişli şərtlər əsasında öz maliyyə aktivlərini və öhdəliklərini mübadilə etməsi üzrə müqavilə hüququ, müəssisənin ödənişi öz səhmlərinin potensial olaraq dəyişən sayı formasında qəbul etməsini tələb edən müqavilə hüququ, müəssisənin öz səhmlərinin sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə maliyyə aktivləri hesab olunur.

Sığorta fəaliyyətinə aid olan aktivlər istisna olmaqla, bütün monetar aktivlər müddət baxımından "tələb edilənədək və bir ildən az" kateqoriyasına daxil olduğu üçün onların ədalətli dəyəri təxminən balans dəyərinə bərabərdir.

**MALİYYƏ ÖHDƏLİKLƏRİ**

Digər müəssisəyə pul vəsaitinin ödənilməsi ilə əlaqədar müqavilə öhdəliyi (kreditor borclar, kreditlər), müəssisə üçün əlverişli ola bilməyən maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin mübadiləsi ilə əlaqədar olan müqavilə öhdəliyi, müəssisənin ödənişi öz səhmlərinin potensial olaraq dəyişən sayı formasında həyata keçiməsini tələb edən müqavilə öhdəliyi, müəssisənin öz səhmlərinin sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə öhdəliyi maliyyə öhdəlikləri hesab olunur.

Sığorta fəaliyyətinə aid olan öhdəliklər istisna olmaqla, bütün monetar öhdəliklər müddət baxımından "tələb edilənədək və bir ildən az" kateqoriyasına daxil olduğu üçün, onların ədalətli dəyəri təxminən balans dəyərinə bərabərdir.

**MALİYYƏ AKTİVİ VƏ YA MALİYYƏ ÖHDƏLİYİNİN AMORTİZASİYA EDİLMİŞ DƏYƏRİ VƏ EFFEKTİV FAİZ METODU**

Bu iki anlayış maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınma dəyəri üzrə tələb olunan hesablamalara aid edilir. Amortizasiya edilmiş dəyər sadəcə olaraq müddət üzrə pul vəsaitlərinin hərəkətini deyil, aktiv (və ya öhdəlik) müddətində qazanılmış real maliyyə gəlirlərini (və ya yaranmış məsrəfləri) nəzərdə tutur. Effektiv faiz dərəcəsi diskontlaşdırma əmsalı kimi istifadə olunaraq gələcək gəlir axını (investisiyadan gələn) xalis balans dəyərinə endirilir. Həmin faiz dərəcəsi sonradan aktivin əldə edildiyi hər bir müddət üzrə əldə olunan maliyyə gəlirlərini müəyyənləşdirmək üçün istifadə olunur. İl ərzində qazanılan real faiz dərəcəsini və illik faktiki pul vəsaiti gəlirini müəyyənləşdirdikdən sonra, aktivin balans dəyəri hesablanır.

**12. ƏMƏLİYYAT RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ**

Cəmiyyətdə risklərin idarə olunması və monitorinqi həyata keçirilərək aşağıdakı əsas risk növləri fərqləndirilir.

**KREDIT RISKI**

Digər tərəfin müqavilə şərtlərini yerinə yetirmək qabiliyyətinin olmaması və ya müqavilənin əsas şərtlərini və ya sığortaçıya münasibətdə digər öhdəlikləri pozması nəticəsində meydana çıxan xərclərin və ya zərərlərin yaranma riski, o cümlədən ölkə xaricindən ödəmələrin köçürülməsi zamanı meydana çıxan risklər kredit riskləri hesab olunur. Rəhbərlik kredit risklərinə müntəzəm nəzarət edir.

**HÜQUQ RISKI**

Sığortaçı tərəfindən qanunvericiliyin tələblərinin pozulması və həyata keçirilən əməliyyatların daxili sənədlərlə, xaricilərə münasibətdə isə digər ölkələrin qanunvericilikləri ilə uyğunsuzluğu nəticəsində xərclərin və ya zərərlərin yaranma riski hüquq riski kimi təsnifləşdirilir. Rəhbərlik hüquq risklərinə vaxtaşırı nəzarət edir.

**ƏMƏLIYYAT RISKI**

Əməliyyat riski sığortaçı tərəfindən daxili nəzarətin təşkilinə dair tələblərin pozulması (yerinə yetirilməməsi), habelə informasiya texnologiyaları sistemində əhəmiyyətli nasazlıqların baş verməsi nəticəsində meydana çıxan xərclərin (zərərlərin) yaranma riskidir. Cəmiyyət tərəfindən əməliyyat riskinin qaşısının alınması üçün qabaqlayıcı tədbirlər görülmüşdür.

**LIKVIDLIK RISKI**

Sığortaçının öz vəzifələrini yerinə yetirməməsi və ya vaxtında yerinə yetirməməsi likvidlik riski kimi müəyyənləşdirilir. Likvidlik riski Cəmiyyətin rəhbərliyi tərəfindən idarə olunur.

**BAZAR RISKI**

Bazar riski bazar qiymətlərinin dəyişməsi nəticəsində sığortaçının vəsaitləri və gəliri üçün yarana biləcək mövcud və ya gələcək təhlükədir. Bazar riski qiymət, valyuta və faiz risklərinə bölünür. Cəmiyyətin rəhbərliyi bazar risklərini qarşılamaq üçün müntəzəm olaraq adekvat tədbirlər görür.

**QIYMƏT RISKI**

Maliyyə bazarlarında dəyişikliyin baş verməsinin sığortaçının maliyyə alətlərinin bazar dəyərinə təsiri nəticəsində xərclərin və ya zərələrin yaranması riski qiymət riski hesab olunur.

**VALYUTA RISKI**

Sığortaçının öz fəaliyyətini həyata keçirməsi zamanı müəyyən beynəlxalq valyuta məzənnəsinin dəyişməsi ilə əlaqədar xərclərin və ya zərərlərin yaranması riski kimi müəyyən olunur. Xarici valyuta məzənnəsindəki dəyişikliklər Cəmiyyətin maliyyə durumuna və pul vəsaitlərinin hərəkatinə təsir edir. Dövrün sonuna Cəmiyyətin Azərbaycan manatı və ABŞ dolları ilə qalıqları bu maliyyə hesabatlarının müvafiq qeydlərində açıqlanmışdır.

**FAIZ RISKI**

İnvestisiyalar üzrə faiz dərəcələrinin dəyişməsi ilə əlaqədar xərclərin və ya zərərlərin yaranması riski faiz riski kimi təsnifləşdirilir.

**NÜFUZ RISKI**

Nüfuz riski – mənfi ictimai rəy və sığortaçıya olan etibarın azalması nəticəsində xərclərin və ya zərərlərin yaranması riskidir. Rəhbərlik Cəmiyyətin işgüzar nüfuzunun və müştəri etimadının yüksək səviyyədə saxlanması üçün tədbirlər həyata keçirir.

**PORTFEL RISKI**

Sığortaçının likvidliyinin itirilməsi, gəlirliyinin və vəsaitlərinin investisiya qoyulduğu qiymətli kağızların məzənnəsinin aşağı düşməsi, həmçinin onların emitentlərinin maliyyə vəziyyətinin pisləşməsindən irəli gələn riskdir. Cəmiyyət öz vəsaitlərini və sığorta ehtiyatlarını müxtəlif sahələrə diversifikasiya etməklə portfel riskini nəzarətdə saxlamağa çalışır.

**TRANSFER RISKI**

Xarici ölkənin və ya xarici şəxsin ödəmə qabiliyyətinin olmaması və ya kredit risklərindən asılı olmayan səbəblərdən sığortaçı qarşısındakı öhdəliklərini yerinə yetirmək istəyində olmaması nəticəsində xərclərin və ya zərərlərin yaranması transfer riski hesab olunur. Cəmiyyət transfer riskləri ilə üzləşməmək üçün adekvat addımlar atmaq məcburiyyətində olur.

**MƏHKƏMƏ IŞLƏRI**

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülür. Cəmiyyətin rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər halları baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı bir ehtiyat fondu yaradılmamışdır.

**Kapitalın idarə edilməsi**

Azərbaycan Respublikasının rezidenti kimi "Azərbaycan Sənaye Sığorta" ASC kapitalın idarə edilməsində fəaliyyətin fasiləsizliyi prinsipini qorumaqla Azərbaycan Respublikasının qanunvericiliyini və ARMB-nin normativ hüquqi aktlarını əsas tutur. ( 25.06.2007 ci il tarixli "Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu", "İcbari sığortalar haqqında "24.06.2011 ci il tarixli 165-IV Q nömrəli qanunu, 28.10.1999 cu il tarixli N-725-İQ saylı qanunu)

**Sığortaçının məcmu kapitalı, sığorta ehtiyatlarının dinamikası**

- ✓ **Sığortaçının öz vəsaiti**

Sığortaçının öz vəsaiti – sığortaçının öhdəliklərindən azad olan, məbləği maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilən qaydalara əsasən hesablanan vəsaitləridir.
31.12.2024-cü il tarixinə "Azərbaycan Sənaye Sığorta" ASC-nin öz vəsaiti qanunvericiliyin tələlblərinə uyğun şəkildə hesablanmış və 9056,48 min manat (2023-cü il - 8951,89 min manat) təşkil etmişdir

- ✓ **Sığortaçının məcmu kapital**

Məcmu kapital – sığortaçının maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin təmin edilməsi üçün lazım olan vəsaitidir
Sığortaçının məcmu kapitalının məbləği onun tələb olunan kapitalının məbləğindən az ola bilməz.
31.12.2024-cü il tarixinə "Azərbaycan Sənaye Sığorta" ASC-nin məcmu kapitalı qanunvericiliyin tələlblərinə uyğun şəkildə hesablanmış və 8992,39 min manat (2023-cü il - 8682,25 min manat) təşkil etmişdir.

- ✓ **Sığorta ehtiyatları**

Sığorta ödənişlərini həyata keçirmək üçün sığortaçının öhdəliklərinin təminatı kimi formalaşdırdığı pul vəsaitlərinin hesablanmış miqdarıdır.

31.12.2024-cü il tarixinə "Azərbaycan Sənaye Sığorta" ASC-nin sığorta ehtiyatları qanunvericiliyin tələlblərinə uyğun şəkildə hesablanmış və 15765,03 min manat (2023-cü il - 12590,39 min manat) təşkil etmişdir

## 13. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövrdə təqdim edilmək üçün əhəmiyyətli hadisə baş verməmişdir.

***Hesabat 2 (iki) nüsxədən ibarət tərtib edildi .***

***Maliyyə hesabatı ilə tanış oldum.***

*"Azərbaycan Sənaye Sığorta" ASC*

***İdarə Heyətinin sədri:*** ***İlkin Mirzəyev***

***Baş mühasib:*** ***Eltun Bayramov***

AZƏRBAYCAN RESPUBLİKASI
AZƏRBAYCAN SƏNAYE SIĞORTA AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
AZƏRBAYCAN SƏNAYE SIĞORTA
OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN INDUSTRIAL INSURANCE

*__________________2025 – ci il*

**Bakı şəhəri**

**27 fevral 2025 – ci il**

**TƏHVİL-QƏBUL AKTI**

***Biz, aşağıda imza edənlər, "İcraçı" "ECONOMİC CHA" Məhdud Məsuliyyətli Cəmiyyətinin Direktoru Cəfərova Sevda şəxsində bir tərəfdən və "Sifarişçi" "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri İlkin Mirzəyev şəxsində digər tərəfdən bu aktı tərtib edirik ondan ötəri ki, "İcraçı" tərəfindən tərtib edilmiş Akt təhvil verilir "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinə .***

***12 fevral 2025 – ci il tarixli CHA № 08 saylı müqavilənin şərtlərinə uyğun olaraq audit aparılmışdır. Auditin yekununda aşağıdakı sənədlər təhvil verilir.***

| | |
|---|---|
| ***Auditor Müqaviləsi*** | ***4 səhifə*** |
| ***Audit hesabatı*** | ***20 səhifə*** |
| ***Auditor Rəyi*** | ***2 səhifə*** |

***Auditin nəticəsinə görə "Sifarişçi"-yə auditorun Hesabat-Rəyi təhvil verilmişdir.***

**Təhvil Verdi:**

**"İcraçı"**__________

**Təhvil aldı:**

**"Sifarişçi"**__________